Azadlıq Radiosu

DÜNYA

# Özbəkistana qayıdan əmək miqrantlarına biznes qrantları veriləcək

indicə




Özbək miqrantlar

Xaricdən Özbəkistana qayıdan əmək miqrantları biznes qurmaq, mövcud bizneslərini inkişaf etdirmək üçün 60 milyon soma (5.1 min ABŞ dolları) qədər qrant ala biləcəklər. Proqramı İsveç Ədliyyə Nazirliyinin maliyyə dəstəyi ilə Özbəkistanın Miqrasiya Agentliyi və Beynəlxalq Miqrasiya Təşkilatı həyata keçirəcək.

"Azattyq Asia" yazır ki, proqramda 2025-2026-cı illərdə xaricdə işləyərək vətənə qayıtmış Özbəkistan vətəndaşları iştirak edə biləcəklər. Vəsait müsabiqə əsasında veriləcək. Əsas seçim meyarları isə biznes ideyasının əsaslandırılması, yeni iş yerlərinin yaradılması və layihənin davamlılığı olacaq.

**2024-2026-cı illərdə Böyük Britaniyada mövsümi işlərdə çalışmış Özbəkistan vətəndaşları üçün ayrıca proqram başladılacaq.**

İyunun 10-da Özbəkistan və İsveç miqrasiya və mobillik üzrə ilk hökumətlərarası sazişi imzalayıblar. Saziş Özbəkistan vətəndaşlarının İsveçdə qanuni şəkildə işlə təmin olunmasını, tibb, qayğı, texniki və xidmət sahələrində mütəxəssislərin hazırlanmasını, İsveç işəgötürənləri ilə birbaşa əməkdaşlığı nəzərdə tutur. Tərəflər əmək miqrasiyası üzrə pilot proqramın başladılması barədə də razılığa gəliblər.

İyunun 11-də Miqrasiya Agentliyi bildirib ki, saziş çərçivəsində Özbəkistan vətəndaşları İsveçdə işləmək üçün hazırlanacaq, bu ölkəyə göndəriləcəklər. Təhsil və akademik mübadilə imkanları genişləndiriləcək.

## Buna da bax:


Putin azərbaycanlıları hindistanlılarla əvəz edir – 'Kreml onları təhdid kimi görür'

Rusiyanın qara siyahısında 104 mindən çox qırğız var

Rusiyada miqrant uşaqlarına 18 yaş şərti: ya patent, ya gediş


AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur